

# Prezidentin ictimai-siyasi fəaliyyətini xalqımız yüksək dəyərləndirir

***Sosial Tədqiqatlar Mərkəzi dövlətimizin başçısının bu ilin ilk dörd ayı (yanvar-aprel) üzrə fəaliyyəti ilə bağlı keçirdiyi rəy sorğusunun nəticələrini açıqlayıb. Sorğuda Azərbaycanda respondentlərin 88,1 faizinin Prezident İlham Əliyevə tam etibar etdiyi, 10,2 faizinin isə əsasən etibar etdiyi vurğulanıb.***

Belə bir dəyərləndirmə təsadüfi deyil. Çünki son 18 ildə dövlətimizin başçısının uzaqgörən inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, beynəlxalq aləmdə nüfuzu artıb, reytinqi getdikcə yüksəlib və dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulub. Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərin gerçəkləşdirilməsi üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirib və "güclü dövlət" konsepsiyasını uğurla reallaşdırmağa nail olub. Azərbaycan regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilib, yeni-yeni hədəflərin gerçəkləşməsi istiqamətində inamlı addımlar atıb.

Azərbaycan Prezidenti İlham Əliyevin ictimai-siyasi fəaliyyətinin xalqımız tərəfindən yüksək dəyərləndirilməsində dövlət başçısının sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayanması da önəmli rol oynayır. Qeyd edək ki, bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin, ilk növbədə, əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsində, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Məhz bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik bir ölkə kimi tanınır. Dövlətimizin başçısının xüsusilə son illərdə ardıcıl, geniş miqyas alan sosial islahatların növbəti mərhələsinə başlanmasını şərtləndirən yeni sərəncamları da bu fikrin bariz ifadəsidir.

Azərbaycan Ordusunun parlaq qələbəsi nəticəsində ərazilərimizin işğaldan azad olunmasından sonra həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri də şəhidlərimizin ailə üzvlərinə, öz sağlamlığını itirən müharibə əlillərinə, eyni zamanda, müharibə iştirakçılarına dövlət dəstəyinin genişləndirilməsidir. Bu yöndə ölkə rəhbərinin tapşırıqlarına uyğun olaraq bir neçə sahə üzrə tədbirlər hazırda da davam etdirilir.

Dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişləri əsasında şəhid ailələri və müharibə əlilləri üçün yaşayış komplekslərinin, şəhərciklərin inşa edilməsi, reabilitasiya mərkəzlərinin istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Bütün bunlar –humanizm prinsiplərinə sadiqlik, sosial qayğıya ehtiyacı olan insanlara xüsusi diqqət Azərbaycan Prezidenti İlham Əliyevin idarəçilik konsepsiyasında prioritet istiqamətlərdən biri olduğunu göstərir. Bu baxımdan şəhid ailələri və müharibə əlillərinə həssas münasibət ölkəmizdə yüksək səviyyədədir. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları tərəfindən bu kateqoriyadan olan şəxslərin problemləri ilə daim yaxından maraqlanılır, onların çətinliklərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailə üzvlərinə və müharibə əlillərinə aidiyyəti təşkilatlar tərəfindən qayğı dövlət qurumlarının mühüm vəzifəsinə çevrilib. Bu isə cəmiyyətdə birliyin və qarşılıqlı etimadın yeni təzahür forması kimi bütün təbəqələrdən olan insanlar tərəfindən xoş ovqatla qarşılanaraq, onların dövlətimizə və Prezidentimizə inam hisslərini gücləndirib.

Məşğulluq sahəsinə dəstək tədbirlərinin reallaşdırılması da diqqət mərkəzində saxlanılır. Bu çərçivədə hər bir şəhid ailəsi üzvü və müharibə əlili məşğulluq tədbirləri ilə əhatələnir. Onların böyük əksəriyyəti özünüməşğulluq proqramlarına cəlb edilərək, kiçik ailə təsərrüfatının qurulması imkanından yararlanır. İşədüzəltmə proqramı da uğurla yerinə yetirilir. Şəhid ailələrinə və müharibə əlillərinə mənzil və avtomobillərin verilməsi də diqqətdə saxlanılır.

Ümumiyyətlə, son üç il ərzində ölkə Prezidentinin müvafiq fərman və sərəncamları ilə bu kateqoriyadan olan insanlara 6300 mənzil ayrılıb. Yeri gəlmişkən, müstəqillik dövründə bu rəqəm 12 min 500 mənzil təşkil edib. Bunun 6300-ü məhz son üç ilin genişləndirilmiş proqramının payına düşüb. Cari ilin sonunadək əlavə 1300 mənzilin də ayrılacağı nəzərdə tutulub.

Prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətinin xalqımız tərəfindən yüksək dəyərləndirilməsində tarixi bir hadisənin də rolu danılmazdır. Belə ki, Vətən müharibəsində Azərbaycanın qazandığı böyük zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı bu gün respublikamızın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. düşməndən təmizlənən ərazilərimizə investor marağını artırır.

Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı yeni iqtisadi model müasir standartlara uyğun qurulub. Azərbaycan bu sahədə də öz standartlarını yaradıb. Mina probleminə baxmayaraq, bərpa və yenidənqurma işlərinin bütün istiqamətlər üzrə sürətlə və planlı şəkildə aparılması diqqətdə saxlanılıb. Su anbarlarının gələcək istismarı, hidroehtiyatların ölkənin su təsərrüfatı sisteminə inteqrasiya olunması ilə əlaqədar layihələrin Böyük Qayıdışın tərkib hissəsinə çevrilməsinə mühüm önəm verilib.

Azərbaycanın istər işğal dövründə, istərsə də indiki postmüharibə mərhələsində daim sülhün, əmin-amanlığın tərəfdarı kimi çıxış etməsi də dövlətimizin başçısının ölkə daxilində, dünyada nüfuzun güclənməsində önəmli rol oynayıb. Yeri gəlmişkən, Prezident İlham Əliyev daim çıxışlarında Vətən müharibəsinin parlaq qələbəmizlə başa çatması ilə Cənubi Qafqazda yeni geosiyasi proseslərin başladığını, regionun tarixində yeni eranın əsasının qoyulduğunu xatırlatmaqla, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasının zəruriliyini dəfələrlə vurğulayıb, bölgədə təhlükəsizlik mühitinin, davamlı sabitliyə və əmin-amanlığa əlverişli şərait yaranmasının məhz bu amillə bilavasitə bağlı olduğunu qeyd edib.

Ölkə rəhbərinin bu məsələyə xüsusi önəm verməsi həm də onunla əlaqədardır ki, region dövlətlərinin yeni əməkdaşlıq formatının qurulması və Zəngəzur dəhlizinin yaradılması kimi layihələrin reallaşması üçün, ilk növbədə, Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyasının aparılması vacib şərtlərdən biridir. Digər tərəfdən isə bu prosesin gerçəkləşdirilməsi sülh sazişinin imzalanmasında önəmli rol oynayır.

Zəngəzur dəhlizinin istifadəyə verilməsi regionda əməkdaşlıq üçün yeni imkanlar yaratması baxımdan vacib olmaqla yanaşı, bölgədə davamlı sülhün qorunub saxlanılması cəhətdən də mühüm önəm daşıyır. Regionun kifayət qədər iqtisadi potensialı var. Bu da regional dəhlizlərin əhəmiyyətini daha da artırır. Daha geniş anlamda region ölkələrindən Türkiyə və Rusiya "Böyük iyirmiliyə" üzv olan ölkələrdir. Söhbət üç trilyon dollarlıq ümumi daxili məhsulu olan region ölkələrinin Zəngəzur dəhlizindən istifadəsindən gedir.

Digər tərəfdən, Zəngəzur dəhlizinin istifadəyə verilməsi, eyni zamanda, Azərbaycanı regionun nəqliyyat qovşağına çevirəcək. Bu yol, xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmin olunması baxımından əhəmiyyətli olacaq.

Bütün bu təşəbbüslər Azərbaycanın hazırda dünyada güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin, davamlı inkişafın təmin edildiyi respublika kimi tanındığını deməyə əsas verir. Ölkəmizin inkişafının əsasında isə dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Bunun nəticəsidir ki, xalqımız dövlətimizin başçısının həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir.

Beləliklə, Azərbaycan bu gün dünyada ciddi narahatlıq doğuran hadisələr, kəskin, ziddiyyətli dəyişikliklər fonunda qlobal öhdəliklərə, sülhə, əmin-amanlığa, humanizm dəyərlərinə sadiqliyini nümayiş etdirir, sülh və təhlükəsizliyin gerçəkləşdirilməsi istiqamətində çevik, konstruktiv siyasət yürüdür. Bütün bu səylər isə ölkəmizdə, dünyada yüksək dəyərləndirilir, beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir.

Azərbaycanın uğurlarının diqqət mərkəzində olması ayrı-ayrı dövlət və hökumət başçıları tərəfindən Prezident İlham Əliyevə ünvanlanan məktublardan, dövlətimizin başçısı ilə aparılan telefon danışıqlarından, respublikamıza səfər edən rəsmi şəxslərin söhbətlərindən də aydın görünür. Bütün bunlar, eyni zamanda, Azərbaycanın regionda yaratdığı reallıqların qlobal miqyasda qəbul olunduğundan, ölkəmizin suveren hüquqlarına hörmət bəslənildiyindən, həmçinin Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması, davamlı sülhün əldə olunması prosesinə mövcud gerçəkliklər çərçivəsindən yanaşıldığından xəbər verir.

Sorğunun nəticələri bir daha göstərir ki, Prezident İlham Əliyevin son 18 ildəki, eləcə də postmünaqişə dövründəki fəaliyyəti xalqımız tərəfindən yüksək qiymətləndirilir. Müsbət haldır ki, ölkə əhalisi dövlətimizin başçısının fəaliyyətini dərindən təhlil edir və lazımınca dəyərləndirir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***